# Azərbaycan-İtaliya münasibətləri yüksələn xətlə inkişaf edir

Yeri gəlmişkən, 1997-ci il sentyabrın 25-28-də ulu öndər Heydər Əliyevin İtaliyaya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin inkişafına xüsusi təkan verib.

Sonrakı dövrdə İtaliyanın rəsmi şəxsləri Azərbaycana, ölkəmizin rəsmi şəxsləri isə İtaliyaya çoxsaylı səfərlər ediblər. Bu səfərlər çərçivəsində iki ölkə arasında ikitərəfli əlaqələrin tənzimlənməsinə, əməkdaşlığın inkişaf etdirilməsinə dair sənədlər imzalanıb.

Göründüyü kimi, Azərbaycan-İtaliya əlaqələri çox möhkəm təməl üzərində qurulub. İki ölkənin münasibətləri 30 il ərzində uğurla inkişaf edərək strateji əməkdaşlıq və tərəfdaşlıq səviyyəsinə yüksəlib. Şübhəsiz ki, bu dövlətlər arasında ali və yüksək səviyyəli səfərlər də əməkdaşlığın möhkəmlənməsində önəmli rol oynayıb.

Respublikamız bu gün İtaliyanın əsas tərəfdaşlarından biridir. Azərbaycanla münasibətlər yüksək səviyyədədir. İtaliyanın Azərbaycanla əlaqələri yalnız enerji sahəsini deyil, iqtisadiyyatın digər sektorlarını da əhatə edir. Bunu İtaliya şirkətləri tərəfindən enerji, infrastruktur və nəqliyyat sahələrinə geniş həcmdə sərmayə yatırılması da aydın göstərir.

Uzun illər ərzində Azərbaycan İtaliya üçün bir nömrəli neft və neft məhsullarının təchizatçısı olub. Ötən ilin yekunlarına görə Azərbaycanla İtaliya arasında ticarət dövriyyəsi təqribən 10 milyard ABŞ dolları təşkil edib. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə olan ticarət dövriyyəsinin 95 faizi Azərbaycanın payına düşüb. İtaliyanın Cənubi Qafqazdan idxal etdiyi məhsulların 50 faizindən çox hissəsini isə Azərbaycan reallaşdırıb.

Hazırda Azərbaycanda 113 İtaliya şirkəti fəaliyyət göstərir. Bu ölkə respublikamızın iqtisadiyyatına 770 milyon dollar, Azərbaycan isə İtaliyaya 1,7 milyard dollar dəyərində sərmayə qoyub.

COVID pandemiyasına qarşı mübarizədə də iki dost ölkə bir-birinə əsl tərəfdaşlar kimi müxtəlif layihələr vasitəsilə yardımlar edib. Pandemiyanın ilk mərhələsində Azərbaycan İtaliyanın bir sıra klinikalarına dəstək göstərib. Sonrakı dövrdə - pandemiyanın Azərbaycana təsiri artdıqda isə İtaliyadan mütəxəssis-həkim qrupu respublikamıza gələrək xəstəliyə tutulan insanlara yardım göstərib.

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 2-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən yuxarıda vurğulananlar barədə ətraflı danışılıb. Dövlətimizin başçısı deyib: "Ölkələrimiz arasında çox güclü siyasi əlaqələr tərəfdaşlığımızın güclü təməlini təşkil edir. 2014-cü və 2020-ci illərdə biz strateji tərəfdaşlıq üzrə iki mühüm bəyannamə imzaladıq. Bu da yaxın dost olmaq üçün qarşılıqlı iradənin mövcud olduğunu göstərir və biz artıq yaxın dostuq. Əlbəttə ki, mənim iki il bundan əvvəl İtaliyaya səfərim və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycana səfəri ilə bağlı çox yaxşı xatirələrim var. Səfərlər, müzakirələr və sənədlər – bunlar ölkələrimiz arasında güclü əlaqələrin olduğunu göstərir. Bildiyiniz kimi, bu yaxınlarda mənim Baş nazir Mario Draqi ilə telefon söhbətim olub və biz sizin Azərbaycana səfərinizi də müzakirə etdik…".

Dövlətimizin başçısı söhbət zamanı iki ölkə arasında ticarət tərəfdaşlığının inkişafı barədə bəhs edərkən, Azərbaycanın Cənubi Qafqazda İtaliyanın əsas ticarət tərəfdaşı olduğunu və bu ölkənin Cənubi Qafqazla reallaşdırdığı ticarətin 95 faizinin Azərbaycanla aparıldığını diqqətə çatdırıb. Prezident İlham Əliyev, eyni zamanda, bu göstəricinin bundan sonra daha da artacağına əminliyini bildirib və bir sıra sahələrdə, o cümlədən, enerji əməkdaşlığında yeni imkanların mövcudluğunu xatırladıb: "Uzun illər ərzində Azərbaycan neft təchiz edən etibarlı mənbə olmuşdur və İtaliyaya neft təchizatının bir nömrəli mənbəyidir. İndi isə Cənub Qaz Dəhlizi layihəsinin tamamlanması ilə önəmli qaz təchizatçısına çevrildik və biz qaz təchizatında 3-cü yerdəyik. İrəliləmək üçün potensial olsa, əlbəttə ki, biz bunu edəcəyik. Həmçinin ötən il bizim 7 milyard kubmetr qazı təchiz etməyimizlə bağlı göstərici də məni çox məmnun etdi və bu il bundan da çox olacaqdır".

Ölkə rəhbəri söhbətində, həmçinin



***Azərbaycanın ikitərəfli münasibətlərinin dinamik inkişaf etdiyi ölkələr sırasında İtaliya xüsusi yer tutur. Xatırladaq ki, bu münasibətlərin əsası İtaliyanın Azərbaycan Respublikasının müstəqilliyini 1992-ci il yanvarın 1-də tanıması, 1992-ci il mayın 8-də isə iki ölkə arasında diplomatik əlaqələr yaradılması ilə başlanılıb. Onu da deyək ki, 1997-ci ilin mart ayında İtaliya hökuməti Cənubi Qafqaz ölkələri arasında ilk dəfə Azərbaycanda öz səfirliyini təsis edib, 2003-cü ilin dekabr ayında isə Azərbaycan Respublikasının İtaliyada səfirliyi fəaliyyətə başlayıb.***

iqtisadi sahədə görülən və nəzərdə tutulan işlərin əməkdaşlığın yüksək səviyyədə inkişaf etməsindən xəbər verdiyini, əlaqələrin strateji və uzunmüddətli xarakter daşıdığını, humanitar sahədə də münasibətlərin diqqətdə saxlanıldığını bildirib.

Prezident İlham Əliyev söhbətində mühüm bir məqama da toxunub. Belə ki, ölkə rəhbəri İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasiminin keçiriləcəyinin respublikamızın tarixində mühüm hadisəyə çevriləcəyini də diqqətə çatdırıb: "İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi olacaqdır. Yer artıq seçilib, hər şey hazırdır. Əminəm ki, bu, Azərbaycanda ən yaxşı universitetlərdən biri olacaqdır və beş italyan universiteti bu layihənin tərəfdaşı qismində çıxış edir".

Xatırladaq ki, aprelin 2-də Bakıda ADA Universitetinin kampusunda İtaliya-Azərbaycan Universitetinin təməlqoyma mərasimi keçirilib. Artıq təməli qoyulan bu universitet Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin təsis olunması barədə razılıq dövlətimizin başçısının 2020-ci ildə İtaliya Respublikasına dövlət səfəri zamanı əldə olunub. İtaliya-Azərbaycan Universitetinin ADA Universitetinin bazasında fəaliyyət göstərəcəyi nəzərdə tutulub.

İtaliya-Azərbaycan Universitetinin təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı–Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub. Bu xüsusda, keçən il ADA Universiteti ilə İtaliyanın adıçəkilən universitetləri arasında İtaliya-Azərbaycan Universitetinin yaradılması və bu istiqamətdə akademik əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Təhsil müəssisəsində təsis olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat, infrastruktur mühəndisliyi, memarlıq, həmçinin şəhərsalma və landşaft memarlığı üzrə təcrübə, nou-hau, texnologiya, habelə innovasiyaların tətbiq olunacağı elm və bilik ocağı olacaq.

Yeri gəlmişkən, İtaliya Azərbaycan-Ermənistan arasında uzun illər davam edən münaqişənin həlli istiqamətində ədalətli yanaşma sərgiləyib. Ermənistan–Azərbaycan müharibəsi zamanı da İtaliya Azərbaycanın yanında olub, bu ölkənin parlament qrupu Azərbaycana səfər edib. Senatorlar Gəncə şəhərinin Ermənistan tərəfindən raketlərlə atəşə tutulmasının nəticələri ilə, Ağdam rayonunda işğalın fəsadları ilə yerində tanış olub, öz fikirlərini bölüşüblər.

Burada bir məqamı da vurğulamaq istərdik. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən, dost ölkələr işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma işlərinə cəlb olunacaqlar. Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında çıxış edən dövlət başçımız bir daha bu fikiri təkrarlayaraq qeyd edib ki, birinci müqavilə Türkiyə şirkəti ilə imzalanıb, ikinci müqavilənin isə İtaliya şirkəti ilə imzalanması nəzərdə tutulub.

Artıq bu ölkə şirkətləri tərəfindən işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri səmərəliliyi və keyfiyyətinə görə diqqət çəkir. Hazırda respublikamızın üç şəhərində İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da dost ölkə şirkətləri tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda işlər uğurla aparılır.

Onu da deyək ki, Vətən müharibəsindən bir müddət sonra dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın "Ansaldo Energia" şirkətinin rəhbəri Marino Guiseppenin, həmçinin İtaliyanın ölkəmizdəki səfiri Augusto Massarinin iştirakı ilə video-konfrans formatında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsinin imzalanıb. Bununla da Qarabağda həyata keçiriləcək layihələrə Türkiyədən sonra başqa bir nüfuzlu dövlət – İtaliya şirkətləri də qoşulub.

"Azərenerji" ilə "Ansaldo Energia" rəhbərlərinin İtaliyanın Azərbaycandakı səfirinin iştirakı ilə imzalanan müqaviləyə görə, Agdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan dörd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz "Ansaldo Energia" şirkəti həyata keçirib.

Ermənistanın 30 il ərzində işğal altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında butun infrastruktur, o cümlədən elektrik stansiyaları, yarımstansiyaları, ötürücü xətləri dagıdılaraq yerlə yeksan edilib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət belə qalmayıb. Laçın, Kəlbəcər, Şuşa və digər işğaldan azad edilmiş ərazilərdə isə erməni qəsbkarları tərəfindən bütün enerji infrastrukturunu sıradan çıxarılıb, düşmən apara bildiyi avadanlıqları daşıyıb, apara bilmədiyini isə ya partladıb, ya da yandırıb.

İki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, o cümlədən, dostluq qruplarının fəaliyyəti də mühüm önəm daşıyır. Bu sahədə gələcək əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində bir sıra layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulur.

Yeri gəlmişkən, bu xüsusda, İtaliya hökuməti və parlamentinin, o cümlədən, senator və deputatların Vətən müharibəsi, həmçinin postmünaqişə dövründə sərgilədiyi ədalətli və beynəlxalq hüquqa əsaslanan mövqe Azərbaycan tərəfindən yüksək qiymətləndirilib.

İki ölkənin enerji sahəsində əməkdaşlığında da ötən illər ərzində mühüm uğurlar əldə edilib. Belə ki, 1995-cu il noyabrın 10-da ARDNŞ və İtaliyanın ENİ/Agip şirkətinin də daxil olduğu beynəlxalq konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Qarabağ" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1996-cu ilin iyunun 4-də Xəzər dənizinin Azərbaycan sektorundakı "Şah Dəniz" perspektiv strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə, 1998-ci ilin iyunun 2-də isə Xəzər dənizinin Azərbaycan sektorundakı "Kürdaşı" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişlər imzalanıb.

Xatırladaq ki, 2002-ci ilin sentyabr ayında İtaliyanın ENİ/Agip şirkəti Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinə dair sazişi imzalayaraq 5 faiz payla layihə üzrə sponsorlar qrupunun üzvünə çevrilib.

İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etməsinin əsas səbəblərindən biri ölkəmizin hər zaman verdiyi vədə sadiq qalması, razılaşdırılan məsələlərin icrasının diqqətdə saxlamasıdır.

Sonda qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən son 18 ildə ardıcıl həyata keçirilən demokratik proseslər və sosial-iqtisadi islahatlarla yanaşı, uğurlu xarici siyasət dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini respublikamıza yönəldib. Şübhəsiz ki, bütün bunlar beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın daha da güclənməsinə, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayının artmasına, Azərbaycanla Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanmasına öz müsbət təsirini göstərib.

Hazırda Azərbaycan regionun yeganə ölkəsidir ki, mürəkkəb geosiyasi şəraitdə müstəqil uğurlu xarici siyasət yürüdərək, milli maraqlara söykənən prinsiplərlə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Bunun nəticəsidir ki, dövlətimizin gerçəkləşdirdiyi enerji layihələri, regional inteqrasiyanı sürətləndirən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Sadalananlar isə Azərbaycanın dünya miqyasında nüfuzunu artırmaqla yanaşı, həm də ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 70 faizi məhz Azərbaycanda formalaşıb. Respublikamız iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə görə, dünya ölkələri arasında öncül yerlərdən birini tutub. Beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycanın potensial maliyyə və iqtisadi imkanları yüksək qiymətləndirilib.

Bütün bu uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsizliyini və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***